**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Fakültə: İqtisadiyyat və idarəetmə**

**Təsdiq edirəm:** ____________

**"İqtisadiyyat" kafedrasının müdiri:**
**i.ü.f.d., dos. Suqra Hümbətova**

# "MİLLİ TƏHLÜKƏSİZLİK" fənni üzrə
# İŞÇİ TƏDRİS PROQRAMI
## (Sillabus)

**I. Fənn haqqında məlumat**

| | |
|---|---|
| **Fənnin kodu:** | 00594 |
| **Fənnin növü:** | seçmə |
| **Tədris semestri:** | yaz |
| **Tədris forması:** | Əyani |
| **Fakültə:** | İqtisadiyyat və idarəetmə |
| **Tədris yükü:** | 60 saat (30/30) |
| **Kredit sayı:** | 4 |

## III. Fənnin təsviri

Ölkənin milli-dövlətçilik maraqlarının və məqsədlərinin reallaşdırılmasının mexanizmlərindən biri milli təhlükəsizliklə birbaşa bağlıdır. Öz növbəsində milli təhlükəsizliyin mühüm aspekti kimi ölkənin iqtisadi təhlükəsizlik məsələlərini qeyd etmək olar ki, bu əməli bir problem kimi son dövrlərdə mühüm bir problem kimi xüsusilə aktuallaşmışdır.

Suveren dövlət kimi Azərbaycan Respublikası daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir.

Azərbaycan Respublikasında bazar mühitinin formalaşdığı indiki şəraitdə dövlət quruculuğunun möhkəmləndirilməsinin əsas şərtlərindən biri həm ölkənin, həm də mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərinin iqtisadi təhlükəsizliyinin təmin edilməsidir.

## IV. Fənnin məqsədi və vəzifələri

Bakalavr təhsil pilləsində «İqtisadiyyat» ixtisası üzrə təhsil alan tələbələr qloballaşma şəraitində tənzimlənən bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq milli iqtisadiyyat mümkün ola bilən təhlükə və təhdidlərin nəzəri-metodoloji və əməli problemlərinin öyrənilməsi çox zəruridir. Bu baxımdan iqtisadi təhlükəsizliyi anlayışını, mahiyyətini, daxili və xarici təhlükələrin dövlətin iqtisadi siyasət və strategiyasında nəzərə alınması, onun indikatorlarının müəyyənləşdirilməsi, hesablanması və milli makroiqtisadi siyasətin həyata keçirilməsində onlardan istifadə edilməsi, iqtisadiyyatın və ölkənin mümhüm sahələrində iqtisadi təhlükəsizliyin təmin edilməsi yol, vasitə və mexanizmlərinin öyrənilməsi bu fənnin tədrisinin mühüm məqsədlərindəndir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələrə iqtisadi təhlükəsizlik meyarlarının məqsədləri, o cümlədən daxili və xarici təhlükələrin, xidmət sferalarının, regional təhlükəsizliyin aradan qaldırılması, formalaşması, milli iqtisadi maraqların və dövlət tərəfindən təyinatının müəyyənləşdirilməsi, beynəlxalq əlaqələrin və beynəlxalq ticarətin iqtisadi təhlükəsizliyinin müstəqil və səmərəli istiqamətlərinin düzgün çatdırılması;
- tələbələrə milli iqtisadi təhlükəsizliyinin dərk edilməsi, yeni sahələrin yaradılması, iqtisadi təhlükəsizlik mənbə və formaları, amilləri, o cümlədən milli iqtisadi təhlükələrin dövlətin iqtisadi siyasətində fəaliyyətinin tənzimlənməsi, o cümlədən maliyyə təhlükəsizliyinin dövlət təminatı istiqamətində araşdırılması haqqında nəzəri baxımdan mülahizə yürütmək kimi qabiliyyətlər əldə etmələrinə dəstək olmaq;
- tələbələrə milli iqtisadi təhlükəsizlik göstəricilərinin dövlət tərəfindən istiqamətləri, müxtəlif bazar tiplərinə məxsus Azərbaycan Respublikası və onun regionlarında dövlətin tənzimləmə siyasətinin işlənilməsi sahəsində zəruri bacarıq və qabiliyyətlərin aşılanması;
- ümumilikdə, dövlətin milli iqtisadi təhlükəsizlik sahəsində sosial təhlükələr problemlərinin araşdırılması, sahibkarlıqda milli təhlükələrin hər bir sahəsi üzrə araşdırmaların tətbiqi, o cümlədən iqtisadi təhlükəsizliyin normativ-hüquqi aspektlərdə qiymətləndirilməsi, onların formalaşması sferasında tələbələrin elmi yanaşmaları və modelləri tətbiq etmək.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr **bilməlidirlər:**

- milli iqtisadiyyatın təhlükəsizliyinin formalaşması, onun forma və istiqamətlərinin yeri və rolunu;
- Azərbaycan Respublikasının milli iqtisadi təhlükəsizliyinin qəbul edib və təsdiqlədiyi qanunlar, proqramlar və normativ hüquqi aktlar barəsində ətraflı məlumatları;
- Milli iqtisadi təhlükəsizliyin vasitə və mexanizmləri, ona təsir edən amil və şərtlər, məqsəd və vasitələrin əlaqəsi, bu sahədə dövlətin optimal, səmərəli siyasətin işlənməsi metodologiyası haqqında kifayət qədər təsəvvürə malik olması;
- makrosəviyyədə təhlil aparmaq, iqtisadiyyatın strukturunu, onun parametrləri və təhlükəsizlik indikatorlarının dinamikasını, cəmiyyətdə və iqtisadiyyatda mövcud olan problemlərin aradan qaldırılması yolları və bu sahədə siyasətinin mühüm problemlərini öyrənərək tam iqtisadi biliklərə yiyələnəcəklər.

**Bacarmalıdırlar**:

- Milli iqtisadi təhlükəsizlik haqqında sərbəst mülahizələr yürütmək;
- Ayrı-ayrı sahələr üzrə (hüquq, sosial, iqtisadi, siyasi, demoqrafik, ekoloji, maliyyə və s.) təhlil etmək;
- Respublikada sosial-iqtisadi inkişafının tənzimlənməsi baxımından təhlükələrin araşdırılması, onların tətbiqi və yerinə yetirilməsi zamanı ayrı-ayrı sahələrin, təhlükəsizlik istiqamətlərində davamlı olaraq modellərin qurulması və nəticələri haqqında sərbəst şəkildə məlumat vermək;
- Müxtəlif sahələrdə milli təhlükəsizlik istiqamətləri üzrə həm beynəlxalq istiqamətdə, həm də regional təhlükəsizliklərin təminatı istiqamətində müxtəlif inkişaf variantlarını proqnozlaşdırmağı.

## VII. Prerekvizitlər

*Yoxdur*

## VIII. Fənnin mühazirə mövzuları

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1. Milli təhlükəsizlik fənninə giriş
2. Təhlükəsizliyə təsir edən cərəyanlar
3. Milli təhlükəsizliyin mahiyyəti və amilləri
4. Hərbi təhlükələr: ənənəvi və qeyri-ənənəvi təhlükələr
5. İqtisadi təhdidlər və ticarət müharibələr
6. Milli təhlükəsizlik strategiyası: konsepsiyalar, proseslər və təsisatlar
7. Fövqəladə hallara reaksiya və fəlakətlərin idarə edilməsi
8. Təbii və insan təhlükələri

9. Milli təhlükəsizlik və kəşfiyyat
10. Müdafiə siyasəti və hərbi doktrinalar
11. Milli təhlükəsizlikdə diplomatiya və beynəlxalq münasibətlər
12. Xarici fəaliyyət və milli təhlükəsizliyin təmin edilməsi
13. Azərbaycanın milli təhlükəsizlik siyasəti: tarixi proses və təsirlər
14. Əsas təhdidlər və təhlükəsizlik problemləri
15. Milli təhlükəsizlik strategiyası və müdafiə siyasəti

## IX. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az) yerləşdirilir. Məhz mövzular üzrə müvafiq ədəbiyyatlar isə tələbələrin elektron şəxsi kabinetlərində "digər materiallar" bölümündə yerləşdirilmişdir.

## X. Əsas dərslik və ədəbiyyat


1. Azərbaycan Respublikası konstitutsiyası Bakı 1995.
2. Azərbaycan Respublikasının İqtisadı inkişafını tənzimləyən qanunlar. Bakı-1991-2001
3. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı-2012-2018-ci illər.
4. Azərbaycan 2020: «Gələcəyə baxış» inkişaf konsepsiyası Bakı 2012
5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-2024-cü illər ərzində hesabatları
6. «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016.
7. prof. Əhmədov M.A., dos. Hüseyn A.C. «İqtisadiyyatın tənzimlənməsinin əsasları» Bakı 2011
8. Bərxudarov M., Məmmədov Z. «İqtisadi təhlükəsizlik», Bakı 2001
9. M.A.Əhmədov «Qloballaşma və milli iqtisadiyyat», Bakı 2004
10. Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi, Bakı 2008, V.İ.Kuşlinin redaktəsi ilə rus dilindən
11. prof.Əhmədov M.A., dos.Hüseyn A.C."Dövlətin iqtisadi siyasəti", Bakı 2011
12. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019 16.Mahmudov M.M., İ.M.Mahmudova "Regionların sosial iqtisadi inkişafının tənzimlənməsi", Bakı, 2012.
17. «İqtisadi təhlükəsizlik» Bakı, 2006, N.Məmmədov, M.Bərxudarov
18. Qlobal Maliyyə Böhranı: "İqtisadi təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları.Bakı-2010
19. Возженников А.Б.Национальная безопасность: теория, практика,стратегия.М, 2002
20. «Экономическая безопасность», Москва, 2005, В.К.Сенчаков 21.«Экономическая инациональная безопасность», Москва 2006, Й.А.Олейникова


## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Milli təhlükəsizlik fənninə giriş | İqtisadi və milli təhlükəsizlik anlayışları,kateqoriyaları, strategiyası və meyarları. Milli təhlükəsizliyin amilləri, iqtisadi təhlükəsizliyin obyekti, subyekti və predmeti | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>"Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu<br>«Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016 |
| 2 | Təhlükəsizliyə təsir edən cərəyanlar | Dövlətin iqtisadi siyasəti və milli iqtisadi təhlükəsizlik strategiyası. İdarəetmə orqanları və funksiyaları, strateji məqsədləri və milli iqtisadiyyatın təhlükəsizliyinə təsir | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>"Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu |

| | | | |
|---|---|---|---|
| | | edən formaları | Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC. Bakı 2019<br>«İqtisadi təhlükəsizlik» Bakı, 2006,N.Məmmədov, M.Bərxudarov |
| **3** | Milli təhlükəsizliyin mahiyyəti və amilləri | Milli iqtisadi təhlükəsizliyin prinsipləri, strategiyası və milli mənafelər. Iqtisadi təhlükəsizliyin mexanizmləri. Milli təhlükəsizlikdə milli maraqlar və tənzimləyici sahələrin formalaşması | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>"Milliiqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu M.A.Əhmədov «Qloballaşma və milli iqtisadiyyat», Bakı 2004 |
| **4** | Hərbi təhlükələr: ənənəvi və qeyri-ənənəvi təhlükələr | Milli iqtisadiyyatın inkişafında iqtisadi təhlükəsizliyin kriteriyaları. Ölkənin milli təhlükəsizlik sistemində rolu. Iqtisadi təhlükəsizlik indikatorları və hədd qiymətləri, qruplaşdırılması. Milli iqtisadiyyatın təhlükəsizlik konsepsiyası | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>"Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu<br>«İqtisadi təhlükəsizlik» Bakı, 2006, N.Məmmədov, M.Bərxudarov<br>Qlobal Maliyyə Böhranı: "İqtisadi təhlükəsizliyin Azərbaycan modeli və dünya təcrübəsi" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı- 2010 |
| **5** | İqtisadi təhdidlər və ticarət müharibələr | Milli iqtisadi təhlükəsizliyin risk konsepsiyası. Iqtisadi təhlükəsizliyin qiymətləndirilməsi. Milli iqtisadiyyatın təminedilmə mexanizmləri, onların xüsusiyyətləri və metodları | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>"Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu<br>.«İqtisadi təhlükəsizlik» Bakı, 2006,N.Məmmədov, M.Bərxudarov |
| **6** | Milli təhlükəsizlik strategiyası: konsepsiyalar, proseslər və təsisatlar | Daxili və xarici təhlükələrin qiymətləndirilməsi. Daxili və xarici təhlükələrin yaranma mənbələri. Milli iqtisadi təhlükəsizlikdə iqtisadi təhlükəsizliyin təmin edilməsi yolları | Əli Həsənov, Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik Siyasəti "Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu «Экономическая безопасность», Москва, 2005, В.К.Сенчаков |
| **7** | Fövqəladə hallara reaksiya və fəlakətlərin idarə edilməsi | Xarici-iqtisadi fəaliyyətə nəzarət mexanizminin tənzimlənməsi. Tarifsiz tənzimləmə tədbirləri. Dövlət tənzimləmə mexanizminin effektivliyi, strukturlaşması və ya parametrləri. Iqtisadi inkişafın ünsürləri. Iqtisadi təhlükəsizlik sahəsində fəaliyyət istiqamətləri, iqtisadi maraqlar daxilində komplek tədbirlərin qiymətləndirilməsi. Sahibkarlıqda milli təhlükəsizlik amilləri. Sənayedə milli təhlükəsizlik amilləri. Milli iqtisadi təhlükəsizlikdə davamlı inkişaf konsepsiyası | Əli Həsənov, Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik Siyasəti "Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu<br>Ə.Həsənov."Azərbaycan Respublikası Milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları", Monoqrafiya. Bakı.2016 |
| **8** | Təbii və insan təhlükələri | Maliyyə təhlükəsizliyində vergi sisteminin rolu, büdcə siyasəti, pul- | Əliyev İlham – "Milli təhlükəsizlik siyasəti" |

| | | | |
|---|---|---|---|
| | | kredit siyasəti. Milli maraqların qorunmasında maliyyə təhlükəsizliyində investisiya siyasəti. Maliyyə təhlükəsizliyinin strategiyası. Maliyyə təhlükəsizlik sistemində obyektiv yanaşma. Vergi sistemində təhlükəsizlik amilləri. Investisiya siyasətinin prinsipləri. | "Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019 «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016. |
| **9** | Milli təhlükəsizlik və kəşfiyyat | Regionların iqtisadi təhlükəsizliyinin təminatı, zəruriliyi, göstəriciləri. Regional təhlükəsizliyin sosial problemləri. Regional iqtisadiyyatın vəzifələri. Dövlət proqramında regionaltəhlükəsizlik.Regional iqtisadiyyatın məqsədləri. Milli iqtisadi təhlükəsizlikdə regionların optimal həlli. | Əliyev İlham – "Milli təhlükəsizlik siyasəti" "Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019 Mahmudov M.M., İ.M.Mahmudova "Regionların sosial iqtisadi inkişafının tənzimlənməsi"Bakı, 2012 |
| **10** | Müdafiə siyasəti və hərbi doktrinalar | Sosial siyasət və sosial təhlükəsizlik, istiqamətləri. Iqtisadi təhlükəsizlik və insan kapitalı. Sosial sabitlik, sosial indikatorlar. Iqtisadi təhlükəsizlikdə sosial müdafiə modeli.Sosial təhlükəsizlikdə demoqrafik faktorlar. Sosial təhlükəsizlikdə kriteriyalar və parametrlər. Iqtisadi təhlükəsizlik göstəriciləri. Milli iqtisadiyyat və ekoloji təhlükəsizlik. | "Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016. Azərbaycan 2020: «Gələcəyə baxış» inkişaf konsepsiyası Bakı 2012 |
| **11** | Milli təhlükəsizlikdə diplomatiya və beynəlxalq münasibətlər | Iqtisadi siyasət və iqtisadi təhlükəsizlik. Iqtisadi siyasətdə tarif və tarifsiz tənzimləmə. Dövlət tənzimlənmə mexanizmində iqtisadi təhlükəsizlik parametrləri. Xarici-iqtisadi fəaliyyətdə iqtisadi təhlükəsizlik indiqaorları. Iqtisadi təhlükəsizlik və dövlətin xarici-iqtisadi fəaliyyəti. | Əliyev İlham – "Milli təhlükəsizlik siyasəti" "Milli iqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə strateji yol xəritəsi» İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli sərəncamı, Bakı 2016. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev Strategiyası. UNEC.Bakı 2019 |
| **12** | Xarici fəaliyyət və milli təhlükəsizliyin təmin edilməsi | Iqtisadi təhlükəsizlikdə hüquqi normativlər. Milli iqtisadiyyatın formalaşması və iqtisadi təhlükəsizlik. Qanunvericilik əsasında iqtisadi inkişafın əlverişli mühiti. Iqtisadi təhlükəsizliyin hüquqi tədbirləri. Iqtisadi təhlükəsizliyin qanun layihələrinin qiymətləndirilməsi. | Əliyev İlham – "Milli təhlükəsizlik siyasəti" "Milliiqtisadi təhlükəsizlik" fənninin mühazirələr toplusu Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı- 2012-2018-ci illər. |
| **13** | Azərbaycanın milli təhlükəsizlik | Azərbaycanın milli təhlükəsizlik siyasəti ölkənin tarixi inkişaf yolu, | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, |

| | | | |
|---|---|---|---|
| | siyasəti: tarixi proses və təsirlər | geosiyasi mövqeyi və milli maraqları əsasında formalaşmışdır. Tarixi proseslər Azərbaycanın milli təhlükəsizlik siyasətinin çevik, çoxşaxəli və milli maraqlara əsaslanan şəkildə formalaşmasına təsir göstərmiş, bu siyasət ölkənin suverenliyinin, ərazi bütövlüyünün və dayanıqlı inkişafının təmin edilməsində həlledici rol oynamışdır. | 2019).<br>“Milli iqtisadi təhlükəsizlik” fənninin mühazirələr toplusu<br>Azərbaycan 2020: «Gələcəyə baxış» inkişaf konsepsiyası Bakı 2012<br>Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 02 fevral 2021 |
| **14** | Əsas təhdidlər və təhlükəsizlik problemləri | Müasir dövrdə Azərbaycanın milli təhlükəsizliyinə təsir göstərən əsas təhdidlər və təhlükəsizlik problemləri çoxşaxəli xarakter daşıyır və həm daxili, həm də xarici amillərlə bağlıdır. Ən mühüm təhlükəsizlik problemlərindən biri dövlətin suverenliyi və ərazi bütövlüyünə yönəlmiş təhdidlərdir. Regional münaqişələr, separatçılıq meyilləri və hərbi risklər ölkənin təhlükəsizlik mühitinə birbaşa təsir göstərir. | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>“Milli iqtisadi təhlükəsizlik” fənninin mühazirələr toplusu<br>Azərbaycan 2020: «Gələcəyə baxış» inkişaf konsepsiyası Bakı 2012 |
| **15** | Milli təhlükəsizlik strategiyası və müdafiə siyasəti | Milli təhlükəsizlik strategiyası dövlətin milli maraqlarının qorunması, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi, daxili sabitliyin saxlanılması məqsədilə həyata keçirilən siyasi, hərbi, iqtisadi və hüquqi tədbirlərin ümumi konseptual çərçivəsini müəyyən edir. Bu strategiya təhlükəsizlik mühitinin təhlili, mövcud və potensial təhdidlərin qiymətləndirilməsi və onlara qarşı adekvat cavab mexanizmlərinin formalaşdırılmasına əsaslanır. | Donald M. Snow, **National Security**, Routledge; 7th edition (July 29, 2019).<br>“Milli iqtisadi təhlükəsizlik” fənninin mühazirələr toplusu<br>Azərbaycan 2020: «Gələcəyə baxış» inkişaf konsepsiyası Bakı 2012<br>Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər, 02 fevral 2021<br>Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası (2007) |

## XII. Seminar-məşğələlər

Seminar dərsləri tələbələrin təqdimatı, komanda çalışması, əlavə fərdi tapşırıqlar və test tapşırıqlarının yerinə yetirilməsi ilə keçirilir. Tələbələr həmçinin əlavə mövzular üzərində çalışaraq apardıqları elmi tədqiqatlarını da seminar dərsində təqdim edə bilərlər. Seminar- məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, əsaslandırmağı bacarmalıdır. Tələbə bunun üçün:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə çıxış hazırlamaqla bərabər, praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 20 ballıq sistem üzrə 0-20 bal arasında (maksimum 20 bal olmaqla) qiymətləndirilir. Tələbə aktivlik balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 3 bal toplayır. Nəticədə tələbə dərslər zamanı ən azı 7 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun.

**DƏRSƏ DAVAMİYYƏT**

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq

edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA QƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.